# Təhsil işçilərinin ənənəvi sentyabr konfransı

## Goranboy



Qabaqcıl aqrar rayonlardan olan Goranboyda da təhsil işçilərinin ənənəvi və əlamətdar hadisə olan sentyabr konfransı keçirilmişdir. Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev, Təhsil Nazirliyinin nümayəndəsi Piralı Əliyev, rayon ziyalıları və təhsil işçiləri möhtəşəm Heydər Əliyev parkına gələrək, Azərbaycanın memarı və qurucusu, təhsilin hamisi, ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi önünə tər çiçəklər qoyaraq, xatirəsini bir dəqiqəlik sükutla yad etdilər. Sonra konfrans öz işinə Heydər Əliyev Mərkəzinin yaraşıqlı zalında, dövlət himninin səslənməsi ilə başladı. Goranboy Rayon Təhsil Şöbəsinin müdir müavini Ağababa İbrahimov qonaqları və iştirakçıları salamladı. O, “2014-2015-ci tədris ilinin yekunları və yeni dərs ilində qarşıda duran vəzifələr” haqqında geniş məruzə ilə çıxış etdi:

—Təhsilin hamisi, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyası, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi qayğısı və diqqəti sayəsində milli təhsilimiz məzmun və formaca yeni inkişaf səviyyəsinə yüksəlmişdir.

Məhz möhtərəm Prezidentimiz cənab İlham Əliyev və Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində bu sahədə aparılan uğurlu iş Goranboy rayonunda da özünü göstərmişdir. Belə ki, təhsilin maddi-texniki bazasının yaxşılaşdırılması Goranboy rayonunda da uğurla həyata keçirilmişdir. Təkcə 2009/2014-cü illərdə 24 məktəbin, 2 əlavə tədris korpusunun tikintisi, 8 məktəbin əsaslı təmiri bu inkişaf göstəricilərindəndir. Ötən dərs ilində də bu sahədə müəyyən işlər görülmüşdür. Belə ki, hər biri 180 şagird yerlik Qarasuçu kənd tam orta, Yenikənd kənd tam orta, Xınnalı kənd tam orta, Goran qəsəbə ümumi orta məktəbləri yenidən tikilmiş, Borsunlu kənd 1 saylı tam orta, Kələk kənd tam orta, Qaramusalı kənd tam orta məktəbləri əsaslı təmir olunmuşdur.



Rayon üzrə 2014/2015-ci dərs ilində 58 tam orta, 11 ümumi orta, 10 ibtidai məktəb, 5 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərmişdir. Bu ümumtəhsil məktəblərində 13907 nəfər şagird təhsillə əhatə olunmuşdur ki, onların təlim-tərbiyəsiylə 3456 nəfər ixtisaslı pedaqoq məşğul olmuşdur.

Ötən tədris ilində rayonun 4 məktəbinə, Alpout kənd tam orta, Faxralı kənd tam orta, Şəfəq kənd tam orta, Qurbanzadə kənd ümumi orta məktəblərinə internet şəbəkələri çəkilmişdir. Ümumilikdə isə rayonun 79 ümumtəhsil məktəbinin 41-i internet şəbəkəsinə qoşulmuşdur.

2014/2015-ci dərs ilində qəbul imtahanlarının nəticələrinə əsasən 266 nəfər məzun tələbə adını qazanmışdır. Bu məzunların 40 nəfəri 500-dən yuxarı, onlardan 12 nəfəri isə 600-dən yuxarı bal toplayaraq yüksək nəticələr əldə etmişdir.

Təhsil şöbəsində fənn olimpiadalarının təşkili və keçirilməsi üçün təşkilat komitəsi yaradılmış, bu komitənin rəhbərliyi ilə bir sıra işlər görülmüşdür. 2015-ci ilin yanvar ayında fənn olimpiadalarının I rayon turu təlimata uyğun keçirilmiş, 49 nəfər şagirdimiz II tura vəsiqə əldə etmişdir. 2 nəfər şagirdimiz respublika turunda iştirak etmək hüququ qazanmışdır. Onlardan 1 nəfər şagird olimpiadaların qalibi olmuşdur. Qaraçinar kənd tam orta məktəbin IX sinif şagirdi Kamalov Firduz Ədalət oğlu gümüş medala layiq görülmüşdür.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibəti ilə “Heydər Əliyev və Müstəqil Azərbaycan” mövzusunda rəsm və inşa yazı müsabiqəsi, futbol və şahmat turnirləri keçirilmişdir.

Məruzə ətrafında çıxış edənlərdən Təhsil Nazirliyinin nümayəndəsi Piralı Əliyev, Faxralı kənd tam orta məktəbin direktor müavini Gülxar Məmmədova, Səfikürd kənd tam orta məktəbin müəllimi, ilin ən yaxşı müəllimi İsgəndər Səklikov, Abbasqulular kənd ümumi orta məktəbin gənc müəllimi Şəlalə Quliyeva, Hazırəhmədli kənd tam orta məktəbin şagirdi, ən yüksək bal toplamış Mehdi Mehdiyev, şəhər 2 saylı tam orta məktəbin direktoru, Əməkdar Müəllim Rəddin Məmmədov Azərbaycan təhsilinin uğurlarından danışaraq, göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

Konfransın qərar layihəsi oxunduqdan sonra Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev tərəfindən fərqlənən bir qrup məktəb direktoru və müəllim “Fəxri diplom”la və pul mükafatı ilə təltif edildilər. Eyni zamanda, bir qrup fəal gənc müəllimə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olundu.

## Naftalan

Naftalan Şəhər İcra Hakimiyyətinin, YAP şəhər təşkilatı nümayəndələrinin, pedaqoji kollektivlərin, ziyalıların və yüksək bal toplamış məzunların iştirakı ilə ənənəvi sentyabr konfransı keçirilmişdir. Dövlət himninin səslənməsindən sonra şəhər təhsil şöbəsinin müdir əvəzi Rəna Dəmirova qonaqları və iştirakçıları salamlayaraq “2014/2015-ci dərs ilinin yekunları və qarşıda duran vəzifələr” mövzusunda hesabatı təqdim etdi.O qeyd etdi ki, təhsilin hamisi ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış inkişaf strategiyası, yeni dövr üçün aparılan mütərəqqi islahatlar möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Naftalan şəhər ümumtəhsil məktəblərində 2014/2015-ci tədris ilində ÜM-1 üzrə 59 sinif komplektində 1076 şagird təhsilə cəlb olunmuşdur. Onların təlim-tərbiyəsi ilə 202 müəllim məşğul olur. Müəllim-şagird nisbəti 1:5-dir.

Təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə aparılan islahatların prioritet istiqamətlərindən biridir. Dövlət Proqramına əsasən şəhər ümumtəhsil məktəblərində 67 kompüter quraşdırılmış, bütün məktəblərimiz Azərbaycan təhsil şəbəkəsinə qoşulmuşdur. Kompüter-şagird nisbəti 1:16-ya çatdırılmışdır. Məktəblərdə Azərbaycan tarixi, fizika, kimya, biologiya, şahmat dərslərində elektron dərsliklərdən istifadə olunur.

2014/2015-ci dərs ilində I-VII siniflərdə dərs deyəcək və indiyədək təlimlərdən keçməyən 35 fənn müəllimi fənn kurikulumun tətbiqi üzrə keçirilən (60 saatlıq) təlim kurslarından keçmiş və müvafiq sertifikat almışlar.

2015-ci ildə şəhərimizin məzunlarından 40 nəfəri respublikamızın müxtəlif ali məktəblərinə qəbul imtahanlarında iştirak etmək üçün sənəd vermişdir. İmtahanın nəticələrinə görə 20 məzun ali məktəb tələbəsi adını qazanmışdır.

Məzunlardan 2 nəfəri 600-dən yuxarı, 5 nəfəri 500-dən yuxarı, 4 nəfəri isə 400-dən yuxarı bal toplamışdır.



İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbdən Nağıyeva Dünya Firdovsi qızı 605 balla Azərbaycan Dövlət Neft Akademiyasına, Zeynalova Selcan Asif qızı 590 balla Seçenov adına Moskva Dövlət Tibb Universitetinin Bakı filialına, Əsədzadə Yusif Anar oğlu 570 balla Azərbaycan Tibb Universitetinə, Təhməzli Nigar Oqtay qızı 533 balla Azərbaycan Tibb Universitetinə, Əhmədzadə Şahnur Bəhlul qızı 509 balla Azərbaycan Dövlət Pedaqoji Universitetinə, Nağıyeva Nailə Firdovsi qızı 474 balla Azərbaycan Dövlət Neft Akademiyasına, Əliyev Seymur Yusif oğlu 443 balla Gəncə Dövlət Universitetinə, Abdullayev Fərid Faxrəddin oğlu 434 balla Milli Aviasiya Akademiyasına, Qəribova Nurlana Vaqif qızı 414 balla Azərbaycan Müəllimlər İnstitutuna, S.Vurğun adına 2 nömrəli tam orta məktəbin məzunlarından Rzayeva Cəmilə Azər qızı 686 balla Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasına, Quliyev Fərman Heydər oğlu Milli Aviasiya Akademiyasına, Kərimov Seymur Niyaz oğlu Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına qəbul olmuşlar.

Tam orta təhsil bazasından 6 şagird orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur.

İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Ədilova Bəsti Möhtəsim qızı təhsildəki nailiyyətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 30.09.2014-cü il tarixli Sərəncamı ilə “Tərəqqi medalı” ilə təltif olunmuşdur.

Məktəblilərin fənn olimpiadalarının şəhər mərhələsində ümumtəhsil məktəblərinin 50 şagirdi iştirak etmiş və 6 nəfər zona mərhələsində iştirak etmək hüququ qazanmışdır. Fənn olimpiadalarının respublika mərhələsinin yarımfinal turunda ümumtəhsil məktəblərindən 5 şagird iştirak etmişdir. İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Təhməzli Nigar Oktay qızı biologiya fənni üzrə I yer, Əsədzadə Yusif Anar oğlu biologiya fənni üzrə III yer, İsgəndərov Sadiq Rafiq oğlu tarix fənni üzrə III yer, S.Vurğun adına 2 nömrəli tam orta məktəbin XI sinif şagirdi Rzayeva Cəmilə Azər qızı tarix fənni üzrə I yer, Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbin IX sinif şagirdi Məmişov Pərvin Əkbər oğlu Azərbaycan dili və ədəbiyyat fənni üzrə III yer tutmuşlar. I yerə layiq görülən şagirdlər final mərhələdə iştirak etmişlər.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92 illik yubileyi ilə əlaqədar təhsil müəssisələrində silsilə tədbirlər həyata keçirilmişdir. Ulu öndərin keçdiyi həyat yoluna həsr olunmuş seminarlar, dərslər təşkil edilmişdir.

Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar Respublika inşa müsabiqəsinin yekun mərhələsində İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin IX sinif şagirdi Nəbizadə Lalə Nizami qızı müsabiqədə həvəsləndirici yerə layiq görülmüş, Diplomla mükafatlandırılmışdır.

Çıxış edənlər — şəhər icra hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər üzrə baş məsləhətçisi Afət Mustafayeva, Təhsil Nazirliyinin nümayəndəsi, Təhsil Problemləri İnstitutunun şöbə müdiri, pedaqogika üzrə elmlər doktoru, professor Piralı Əliyev, İ.Nəsimi adına 1 saylı tam orta məktəbin direktoru Faiq Rüstəmov, S.Vurğun adına 2 saylı tam orta məktəbin direktoru Adilə Bağırova, Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbin direktoru Ulduz Mayılova Azərbaycanda gedən innovativ inkişafdan və təhsil quruculuğundan söhbət açdılar, təhsilə sonsuz diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə etdilər.

Konfrans iştirakçıları adından ölkə başçısına müraciət qəbul olundu.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**